AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Sentyabr 2022

# M ü n d ə r i c a t

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3
Buğdanın Rusiya Federasiyasında qiyməti ........ 6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 7 oktyabr 2022-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksində 2022-ci ilin sentyabr ayında altıncı ay ardıcıl olaraq enmə trendi davam edib.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin sentyabr ayında orta hesabla 136.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.1% (1.5 bənd) az, ötən ilin sentyabr ayı ilə müqayisədə isə 5.5% (7.2 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** sentyabr ayında orta hesabla 121.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.5% (0.6 bənd) az, ötən ilin sentyabr ayı ilə müqayisədə isə 7.7% (8.7 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** sentyabr ayında orta hesabla 142.5 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.8 bənd) az, ötən ilin sentyabr ayı ilə müqayisədə isə 20.7% (24.7 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** sentyabr ayında orta hesabla 147.8 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.5% (2.2 bənd), ötən ilin sentyabr ayı ilə müqayisədə isə 11.2% (14.9 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** sentyabr ayında orta hesabla 152.6 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 6.6% (10.8 bənd), ötən ilin sentyabr ayı ilə müqayisədə isə 9.5% (16.0 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** sentyabr ayında orta hesabla 109.7 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.7% (0.8 bənd), ötən ilin sentyabr ayı ilə müqayisədə isə 9.5% (11.5 bənd) **azdır.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 oktyabr 2022-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalının rekord həcmdə - 781.7 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 290 | 276 |
| | İstehsal | 775 | 780 | 782 |
| | **Cəmi təklif** | 1073 | 1070 | 1058 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 208 |
| **TƏLƏB** | Ərzaq və toxum | 624 | 633 | 635 |
| | Yem | 158 | 161 | 156 |
| | Cəmi istifadə | 782 | 794 | 790 |
| **İLİN SONUNA QALIQ** | | 290 | 276 | 268 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **37%** | **35%** | **34%** |

**Mənbə:** *https://www.uswheat.org/market-information/supply-and-demand/*

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 12 milyon ton azalaraq 1058 milyon ton olacağı proqnozlaşdırılır. Buna başlıca səbəb ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 4.8% azalaraq 276 milyon tona düşməsidir.

- Qlobal buğda ehtiyatları həcminin 2021/2022-ci məhsul ili ilə də müqayisədə 2022/2023-cü məhsul ilində 2.9% azalacağı və 268 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34% səviyyəsində olacaq.

- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin sabit olaraq 59.0 milyon ton, istehsal həcminin isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 6 milyon ton çox (390 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 6 milyon ton çox (449 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 5 milyon ton artaraq 208 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 2 milyon ton azalaraq 142 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 3.58% artaraq 138.8 milyon ton, ixracın isə 0.97% artaraq 62.7 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi sentyabr ayında da davam etmişdir. Sentyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 9.2% artaraq 344.5 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

# Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının 2022-ci ilin iyun ayında ən yüksək səviyyəyə çatan ixrac qiymətlərində növbəti aylarda azalma trendi müşahidə edilmiş, sentyabr ayında isə azalma əvvəlki aya nisbətən 3.9% olmaqla qiymət 320 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən Avropa bazarında 1.6% artaraq 306.2 ABŞ dolları, Qara dəniz bazarında isə 5.8% azalaraq 275.2 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *[http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic](http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic)*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Düyünün dünya bazar qiymətində 2022-ci ilin avqust ayında başlayan artım sentyabr ayında da davam etmişdir. Sentyabr ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 2.7% artaraq 423.6 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Dünya bazarında qarğıdalı qiymətləri 4 aylıq ardıcıl azalmadan sonra 2022-ci ilin sentyabr ayında yenidən yüksəlmiş, əvvəlki aya nisbətən 7.8% artaraq 312.5 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə 1.98% artaraq 25.7 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Sentyabr | 2022/2023 Oktyabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 18.0 | 21.4 | 18.9 | 18.5 | 18.6 |
| **İstehsal** | 25.8 | 26.2 | 24.3 | 25.2 | 25.8 | 25.7 |
| **Təklif** | 43.8 | 44.1 | 45.7 | 44.0 | 44.2 | 44.3 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.6 | 25.8 | 25.2 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.9 | 18.5 | 18.5 | 19.1 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.9%* | *94.5%* | *70.5%* | *72.6%* | *71.4%* | *76.0%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Oktyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 8.0 | 8.2 | 8.1 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.1 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.9 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 16.1 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.6 | 7.9 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.1 | 8.2 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.6 | 8.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *106.2%* | *102.5%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Oktyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.7 | 10.4 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.3 | 19.6 |
| **Təklif** | 30.4 | 31.3 | 30.0 | 30.1 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 17.9 | 17.2 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.9 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.6 | 19.1 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.7 | 10.4 | 11.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.4%* | *51.6%* | *53.2%* | *57.4%* |

**Mənbə**: [https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/](https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/)

➢ **Pambığın dünya bazar qiymətində 2022-ci ilin iyun ayından etibarən başlayan azalma tendensiyası sentyabr ayında da davam etmişdir. Bu ayda pambığın 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 4.7% azalaraq 2.61 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 0.13% artaraq 64.51 min ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 2.2% azalaraq tona 20.71 min ABŞ dolları olmuşdur.**







**Mənbə:** *http://www.sunsirs.com/uk/sdetail-month--.html*

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin mart ayında kəskin artan günəbaxan yağı qiymətləri növbəti aylarda ardıcıl olaraq azalaraq sentyabr ayında 1306 ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Bu ayda azalma əvvəlki aya nisbətən 14.2% olmuşdur.**







**Mənbə:** *https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade*

## Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2022-ci ilin sentyabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 5.2%, İspaniya bazarında 2.4% artmaqla müvafiq olaraq 4791 və 3888 ABŞ dolları, Yunanıstan bazarında isə 2% azalmaqla 3273 ABŞ dolları təşkil etmişdir.**







**Mənbə**: *https://www.internationaloliveoil.org/what-we-do/economic-affairs-promotion-unit/#prices*

# Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin iyul ayından etibarən çay qiymətlərində müşahidə edilən kəskin artm avqust ayında dayanmış, sentyabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 1.5% azalaraq 3.3 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **Şəkərin qiymətində 2022-ci ilin iyun ayından etibarən müşahidə olunan azalma avqust-sentyabr aylarında 0.39 ABŞ dolları/kq səviyyəsində stabilləşmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində 2022-ci ilin ortalarından başlayan azalma sentyabr ayında da davam etmiş, əvvəlki aya nisbətən 1% azalaraq 664.5 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ Mal ətinin qiymətində müşahidə olunan ardıcıl 5 aylıq azalma sentyabr ayında da davam etmişdir. Ətin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 1.05% azalaraq sentyabrda 5.65 ABŞ dolları səviyyəsinə düşmüşdür.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **İlin əvvəlindən qoyun ətinin qiymətində başlayan azalma sentyabr ayında da davam etmişdir. Avropa bazarında bu ətin 1 kiloqramının qiyməti ötən aya nisbətən 2.1% azalaraq 7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://ec.europa.eu/info/food-farming-fisheries/animals-and-animal-products/animal-products/lamb-mutton-and-goatmeat_en#marketmonitoring*

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2022-ci ilin sentyabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 2.5% artaraq 2.09 ABŞ dolları olmuşdur.**







**Mənbə:** *https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/overviews/market-observatories/meat/pigmeat-statistics_en#trade*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 0.3% azalaraq 3.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ 2022-ci ilin avqust ayında əvvəlki ayla müqayisədə süd xammalının 1 tonunun sahədənsatış qiyməti ABŞ-da 5.7% azalaraq 535.4 ABŞ dollarına, Avropa İttifaqında isə 0.9% artaraq 525.2 ABŞ dolları olmuşdur.







Mənbə: https://www.clal.it/en/index.php

➢ Quru südün 1 tonunun qiyməti 2022-ci ilin sentyabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da 2.3% artaraq 5201 ABŞ dolları, Avropa İttifaqında isə 2.1% azalaraq 4892 ABŞ dolları olmuşdur.







Mənbə: https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Sentyabr ayında əvvəlki aya nisbətən kalium gübrəsinin qiyməti sabit qalmış, fosfor gübrəsinin qiyməti 0.6%, azot gübrəsinin qiyməti isə 14.7% artmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets](https://www.worldbank.org/en/research/commodity-markets)